Rüstəmov, İ. Adı zəfər tarixində əbədiləşən qəhrəman / İlqar Rüstəmov // Xalq qəzeti. - 2021. - 10 oktyabr. - № 218. - S. 7.

Mətbuatda yaşı bəlkə də heç 30-a çatmamış cəsur, qəhrəman şəhidlərin foto-şəkillərdən baxan təbəssüm dolu gözlərinə, mərdlik yağan baxışlarına diqqət yetirib öz-özünə düşünürsən: Axı bunlar nə vaxt müharibə aparmağa belə hazırlaşdılar? Yaşadıqları qısa həyat tarixçələrinə diqqət edəndə heyrətə gəlirsən ki, bu gənc simalar elə doğulandan savaşa, əsir torpaqlarımızın xilasına hazırlaşıblarmış. Haqqında söhbət açacağım baş leytenant Əliqismət Mükafat oğlu Yaqublu da məhz bu qəhrəmanlardandır.

…Həyat tarixçəsi 1992-ci il aprelin 18-də doğulduğu ucqar Lerik rayonunun Kələxan kəndindən başlayan Əliqismət Yaqublu 2007-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə daxil olmaqla arzusuna doğru ilk uğurlu addımını atır. Böyük həvəs və sonsuz maraqla hərb sənətinin sirlərini öyrənməyə başlayır. İlk gündən hərbi fənlərə sonsuz maraq müəllimlərində onun əsl peşəkar hərbçi olacağına böyük inam yaradır. Hər belə müdavimlə rastlaşanda hərbi məktəbin birinci Qarabağ savaşının iştirakçısı olmuş yüksək rütbəli zabit müəllimləri hədsiz sevinirdilər.

2010-cu ildə Əliqismət Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (AAHM) daxil olur və təhsilini davam etdirməyə başlayır. Müasir döyüş taktikasının, yeni silah və sursatların döyüşdə tətbiqinin elmi-praktik sirlərini qavradıqca, döyüş təlimlərinin nə qədər asan olduğunu görən Əliqismət daha böyük maraqla tədris proqramlarının materiallarını da mənimsəyirdi.

Ali Hərbi Məktəbi uğurla başa vurduqdan sonra gənc zabit Əliqismət Yaqublu Müdafiə Nazirliyinin Qobustan rayonunda yerləşən "N" saylı hərbi hissəsinə təyinat alır. Gəldiyi hərbi hissə döyüş bölgəsindən uzaq olduğundan gənc zabit fəaliyyətinin bir ili tamam olmamış komandanlığa rəsmi müraciət ünvanlayıb, cəbhə bölgəsində xidmət etmək arzusunda olduğunu bildirir. Komandanlıq onu Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissəyə göndərir.

Ötən il İkinci Qarabağ müharibəsi başlayanda Əliqistmət sadəcə zabit "paqonu daşıyan" bir adam deyildi. Artıq müharibənin od-alovundan çıxmış zabit kimi bərkimişdi. Belə ki, 4 il əvvəl, 2016-cı ildə Azərbaycan tarixinə "Aprel döyüşləri" kimi düşən qələbə müjdəli 4 günlük müharibədə iştirak etmiş, necə deyərlər, barıt qoxusu almış, real döyüşlərin od-alovunda bərkimiş, şəxsi şücaəti, cəsurluğu, mətinliyi ilə komandanlığın diqqətini çəkmişdi. "Aprel döyüşlərindən" sonra Əliqismət yenidən Qobustandakı hərbi hissəyə göndərilir. Amma bu təyinatı da çox çəkmir və 2017-ci ildə yenidən öz istəyi ilə cəbhə bölgəsində - Ağcabədidə xidmətini davam etdirir. Məhz bu hərbi hissədə xidməti zamanı axır ki, öz istəyinə nail olur və 2018-ci ildə Xüsusi Təyinatlı Qüvvələrin baş leytenantı kimi kimya xidmət rəisi vəzifəsinə təyinat alır…

Xüsusi Təyinatlı Qüvvələrə göndərilən Əliqismət nümunəvi zabit olduğunu burda da təsdiqləyir və çox keçmir ki, kəşfiyyat qrupunun komandiri təyin olunur. Bu vəzifə ona heç də təsadüfi verilmir. Hərbi bilikləri dərindən bilməsi, cəsarəti, mərdliyi və qorxmazlığı ilə

yanaşı, Əliqismət həm də əsl dağlar oğlu idi. Doğulduğu və uşaqlığı keçən Lerik rayonunun Kələxan kəndində zirvəsinə qalxmadığı dağ, qaya, sıldırım qalmamışdı.
2020-ci il sentyabrın 27-də Ali Baş Komandan İlham Əliyevin əks-hücum əmri veriləndə, ordumuzun bütün zabit və əsgər heyəti kimi Əliqismət də çox sevinmişdi. "Nəhayət ki, Vətəni xilas etmək zamanı yetişdi", – deyə gənc zabit döyüşçü dostlarla elə ilk gündən düşmən üstünə şığıdı. Cəbhə xəttinin ön mövqelərində vuruşan Xüsusi Təyinatlı Qüvvələr ən ağır və mürəkkəb əməliyyatların icrasına göndərilirdilər.
…Kəşfiyyatçı kimi tez-tez düşmən arxasına keçdiyindən ərazilərdəki dağı, dərəni, kənd-kəsəyi əl içi kimi tanıyırdı. Cəbhə bölgəsində bütün komandirlərdən tutmuş əsgərlərə qədər çox vaxt hamı onu "Bələdçi Əli",- deyə çağırırdı. Ona görə də komandanlıq müharibə gedən günlərdə döyüş bölmələrinin ərazidə etibarlı mövqe seçib yerləşdirilməsində Əliqismətin köməyindən çox istifadə edirdi. O hərbi maşın karvanlarını və hərbi hissələri təhlükəsiz mövqelərdə yerləşdirməklə yanaşı, düşmənin pusqu qura və qəfil hücum edə biləcəyi yerləri də yaxşı bilirdi. Beləcə, baş leytenant Əliqismət Yaqublu öz döyüş qrupu ilə Murovdağ yüksəkliyi, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonlarının və Laçının bir neçə kəndinin işğaldan azad olunmasında xüsusi qəhrəmanlıq göstərir.
Azərbaycan ordusunun bir çox hissələri Şuşaya yaxınlaşırdılar. Şəhərin bir addımlığında, əsas məntəqələrdən biri sayılan Daşaltıya hücum başlamışdı. Azərbaycan döyüşçülərinin az bir vaxtda belə sürətlə irəliləməsi, hətta Şuşanın qapısına qədər gəlib çatmaları, həmişə özlərindən razı olan erməni silahlı qüvvələrinin hərbçilərini, sözün əsl mənasında, isterikaya salmışdı. Bundan quduzlaşmış düşmən mövqelərimizi ağır artilleriyadan, tanklardan və minaatanlardan dayanmadan, aramsız atəşə tuturdu. Həmin gün Əliqismət, həmişə olduğu kimi, hamıdan öndə döyüşə atıldı. Düşmənə sarsıdıcı zərbə endirən Azərbaycan silahlı qüvvələrinin tərkibində baş leytenant Əliqismət Yaqublu da öz qrupu ilə Daşaltıya girdi.
Noyabrın 4-də gecədən Şuşaya həmlə başladı. Ən ağır mövqelərdə Xüsusi Təyinatlı Qüvvələrin döyüşçüləri gedirdi. Bu sadəcə hücuma keçib hansısa məntəqəni, döyüş mövqeyini düşməndən təmizləmək deyildi. Onlar göz qırpmadan qurğuşun yağışının altında doğma Vətənin əsir düşmüş torpaqlarını azad etməyə qalxmışdılar. Neçə illər idi ki, bunun təşnəsində idilər
– Mən ən ağır döyüşlər gedən vaxtda yaralanmışdım, – deyə zabit Ceyhun Təhməzov dərindən ah çəkib söhbətə başlayır. – Güllə yağış kimi yağır, ətrafda top və minaatanların mərmiləri ara vermədən partlayırdı. Əliqismət kimdənsə yaralı olduğumu eşitmişdi. Heç nəyə məhəl qoymadan, dərhal özünü mənə çatdırdı. İlkin tibbi yardımdan sonra məni çiyninə alıb döyüş meydanından çıxartdı və tibbi heyətə təhvil verib, yenidən döyüşə qayıtdı. Əgər bu yardım geciksəydi, yəqin, indi həyatda yox idim…
Əliqismətin xilas etdiyi təkcə zabit yoldaşı Ceyhun deyildi. Onlarla ağır yaralı zabit və əsgər onun sayəsində güllə yağışının altından çıxarılıb xilas edilmişdi. Elə ona görə də Şuşa uğrunda gedən döyüşlərdə onların sıralarında güllə və ya qəlpə yarası almamış çox nadir dostlar qalmışdı. Amma heç kim döyüş meydanını tərk etməyi ağlının ucundan belə keçirmirdi. Bütün bunların canlı şahidi olan "N" saylı hərbi hospitalın baş həkimi gündəliyində yazır: "Şuşa uğrunda gedən döyüşlərdə sanitarlar çoxlu sayda ağır yaralılar və şəhidlər gətirirdilər. Gətirilənlərin əksəriyyətində köhnə, sağalmamış yaralar müşahidə

olunurdu. Burdan aydın başa düşülür ki, əsgər və zabitlərimiz döyüşə getmək üçün güllə və qəlpə yaralarını tibbi personaldan gizlədirmişlər. Dünya tarixində heç bir müharibədə, heç bir xalqda belə kütləvi fədakarlıq müşahidə olunmayıb. Nə qədər ağır olsa da, bunu yazmalıyam. Şəhidimiz Əliqismət də son döyüşə gedəndə bədənində qəlpə yarası varmış...".
Əliqismətin yaralı ola-ola döyüşə girməsi bizim üçün qəribə görünə bilər. Hətta sual da verərik ki, təcrübəli zabit nədən yaralı ola-ola döyüşə girib? Amma Xüsusi Təyinatlı Qüvvələrin döyüş prinsipləri və ləyaqət kodeksi ilə tanış olanlar yaxşı bilir: əgər həqiqi xüsusi təyinatlının döyüşü davam etdirmək üçün gücü və qüvvəsi tükənməyibsə, ixtiyarında olan silah-sursatdan istifadə edə bilirsə o, döyüş meydanını tərk etməz.
Hazırda xidmətdə olan zabit yoldaşlarından biri deyir: "Şuşaya hücumdan xeyli əvvəl Əliqismət qrupu ilə bir-neçə dəfə Şuşa şəhərində kəşfiyyata getmiş, zəruri məlumatları toplamağa nail olmuşdu. Onlar hətta gizlincə şəhərdəki məscidi də ziyarət etmişdilər…"
Noyabrın 5-nə keçən gecə yurdun qeyrət qalası Şuşanın xilası uğrunda əməliyyat başladı. Qızğın döyüşlər gedirdi. Azərbaycan əsgərlərindən yaralananlar belə, ayaqda dura bilirdilərsə, heç biri geri addım atmaq fikrində deyildi. Hamı başa düşürdü ki, Qələbənin bir addımlığındadırlar. Baş leytenant Əliqismət Yaqublunun döyüşdüyü mövqe aramsız güllə və mərmi atəşi altında idi. Saat 16-17 radələrində vəziyyət son dərəcə gərginləşmişdi. Erməni komandanlığı hərbi qüvvələrinin Daşaltıdan geri çəkildiklərinə görə daha da quduzlaşaraq, oranı fasiləsiz artilleriya atəşinə tuturdu. Sanki düşmən Əliqisməti və onun qrupunu nəzarətə götürmüşdü. Baş leytenantın döyüşçüləri heç nəyə məhəl qoymadan addım-addım irəliləyirdi. Elə bu məqamda düşmən artilleriyasının atəşilə atılan mərmilərdən biri Əliqismətin yaxınlığına düşüb partladı. Komandirlərinin ölümsüzlüyünə alışmış xüsusi təyinatlılar Əliqismətin yıxıldığını görüb, ildırım vurmuş kimi bir anlıq donub qaldılar. İndi xilaskar zabitin özünü bu atəşin altından çıxarmaq lazım idi. Bir neçə dəqiqə keçməmiş komandir artıq hospitala çatdırıldı. Həkimlər dərhal işə başladılar. Onların heç bir cəhdi nəticə vermirdi. Yaraları son dərəcə ağır idi. Vətənin yaralarına məlhəm olan daha bir igid, cəsur zabit beləcə son dəfə ətrafına nəzər salıb, gülümsədi və gözlərini əbədi yumdu…
P.S. Çox keçmədi ki, Əliqismət Yaqublunun Vətənimizin tarixinə qızıl hərflərlə yazılan və əbədi yaşayacaq qəhrəmanlıq dastanı dövlətimiz tərəfindən layiq olduğu qiyməti aldı. Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etmiş, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərmiş, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirmiş Xüsusi Təyinatlı Qüvvələrinin baş leytenantı Əliqismət Mükafat oğlu Yaqublu ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Azərbaycan Bayrağı"ordeni və "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.